**Çəkir**

Ruhumu şərbət hava
Bərəyə, bəndə çəkir.
Çağırır doğma yuva
Yaz məni kəndə çəkir.

Qanımda kef cücərir,
Qəm atın gendə çəkir.
Yoluma lalə sərir,
Yaz məni kəndə çəkir.

Arıtək gül-çiçəyə,
Şəkərə, qəndə çəkir.
Qoşub əlçim küləyə
Yaz məni kəndə çəkir.

Ən ulu ruh dirildi
İlikdi, qandı çəkir.
Ölüm-itim yeridi
Yaz məni kəndə çəkir.

Nə suçim var yumağa
Çeşmələr anda çəkir.
Qanadım var uçmağa
Yaz məni kəndə çəkir.

Bu səadət yükünü
Tay hansı bəndə çəkir?
Üzümdən nur tökülür –
Yaz məni kəndə çəkir.

**Çəkir : şeir // Azərbaycan xalq bayramı Novruz. – Bakı : Təhsil, 2011. – S. – 179.**